

***Məmməd Araz***

## *KÖRPÜLƏNİN, AY TÜRKLƏR, AZƏRBAYCANI QOYMAYIN TƏKLƏNƏ*

*Təklikdə çaylaq daşıyam,*
*Məni qoymayın təklənəm!*
*Əl dəydi, çaxmaq daşıyam!*
*Məni qoymayın təklənəm!*

*Bir dəryadır hər zərrəcik,*
*Dəm zərrəcik, dərd zərrəcik,*
*Namərdə də mərd zərrəcik*
*Dəni qoymayın təklənə!*

*Dağsız duman yalnız ahdı,*
*Qara bulud yalqız axdı.*
*Çən təkləndi - yalquzaqdı,*
*Çəni qoymayın təklənə!*

*Xəlbirlənə kaş ömür də,*
*Boş il düşə boş ömürdən...*
*Xoş an qalar xoş ömürdən,*
*Anı qoymayın təklənə!*

*Yaman çoxalıb bu azlar,*
*Bu kəndirsiz kəndirbazlar!*
*Körpülənin, ay Arazlar,*
*Məni qoymayın təklənəm!*

***Dekabr, 1980***

ədalət.-2022.-19 noyabr.-S.1.